# SİYİRTMƏ QOVŞAQLARI



Torpaq altında və ya asfalt örtük altında olan boru kəmərlərinə birləşdirilmiş olan müxtəlif növ siyirtmələri və ya hidrantları örtüyün üst səthindən idarə etmək üçün bu qovşaqlardan istifadə edilir.

## 1. Məhsulun məqsədi və texniki xüsusiyyətləri:

Siyirtmə qovşağı flanşlı gövdədən, profil, profil başlıqlarından və qapaqdan ibarətdir.
Gövdə və qapaq boz çuqundan istehsal olunur GG-25 (ГОСТ СЧ 25).
Estetik görünüş üçün qara bitum boya vurulur.

AZERTEXNOLAYN MMC məhsullarının istismarına mənfi təsir göstərməyən dizayn və material dəyişikliyi hüququnu özündə saxlayır. 1-May-2020

MÜƏLLİF HÜQUQLARI©AZERTEXNOLAYN MMC 2020

**2. Əsas texniki məlumatlar və xüsusiyyətlər:**

2.1 Xarici görünüş və bağlantıların ölçüsü




| № | DETAL | MATERİAL | ƏDƏD |
|---|---|---|---|
| 1 | Gövdə | Çuqun GG25 | 1 |
| 2 | Qapaq | Çuqun GG25 | 1 |
| 3 | Profil alt başlığı | Çuqun GG25 | 1 |
| 4 | Profil üst başlığı | Çuqun GG25 | 1 |
| 5 | Profil | Qalvanizli polad | 1 |
| 6 | Bolt-qayka | Qalvanizli polad | 2 |
| 6 | Bolt-qayka | Qalvanizli polad | 2 |

AZERTEXNOLAYN MMC məhsullarının istismarına mənfi təsir göstərməyən dizayn və material dəyişikliyi hüququnu özündə saxlayır. 1-May-2020

MÜƏLLİF HÜQUQLARI©AZERTEXNOLAYN MMC 2020

| D1 | D2 | D3 | H |
|---|---|---|---|
| 138 | 180 | 216 | 160 |

Unit, mm. * Texniki şərtlər pasportu və kitabça məhsulun hər bir hissəsinə 1 ədəd olur.

**3. Quruluş və iş prinsipləri:**
Boru xəttinə montaj edilmiş siyirtmə və hidrantlar üzərinə yerləşdirilir və qovşağ yer səthindən yuxarı çıxarılmamaq şərti ilə montaj edilir.

**4. Təhlükəsizlik qaydaları:**
Siyirtmə qovşağının quraşdırılması zamanı siyirtmənin qovşağın səth ilə paralel olmasına və qovşağın səthdən yuxarı çıxmamasına diqqət etmək lazımdır.

**5. Quraşdırma qaydası:**
Siyirtmə qovşağı yol səthinin səviyyəsində mil üzərində quraşdırılmışdır. Qovşağın daxilinə torpaq getməsinin qarşısı alınmalıdır və əgər bu hal baş verərsə təmizlənməsini təmin etmək lazımdır.

**6. Saxlama məlumatları:**
Quraşdırılmadan əvvəl, siyirtmə qovşağını anbarlarda kənar təsirlərə məruz qalmayacaq şəkildə saxlamaq lazımdır.

**7. Daşınma:**
7.1 Siyirtmə qovşağı hər hansı bir malın daşınması qaydalarına uyğun olaraq bütün nəqliyyat növləri ilə daşınıla bilər.
7.2 Qablaşdırmadan göndərilməsinə icazə verilmir, qırılmamaq üçün qapağı çıxarmaq məsləhət görülür. Material boz çuqun olduğundan qırılmaya həssasdır və ehtiyyatla davranılmalıdır. Yükləmə zamanı sıxılmayacaq yerlərə yerləşidirilməlidir.

**8. Zəmanət:**
Avadanlıq sertifikatlıdır. AZERTEXNOLAYN MMC istehlakçılara nəqliyyat, saxlama, quraşdırma və istismar qaydalarına riayət olunmaqla, istismara verildiyi gündən 10 il müddətinə zəmanət verir (iqlim şəraiti, quraşdırma və istifadəçi nöqsanları istisna olunmaqla). Siyirtmə qovşağının tam xidmət müddəti 15 ildir.
Quraşdırılma qaydalarının pozulması halında, siyirtmə qovşağının keyfiyyətinə dair iddialar qəbul edilmir.

AZERTEXNOLAYN MMC məhsullarının istismarına mənfi təsir göstərməyən dizayn və material dəyişikliyi hüququnu özündə saxlayır. 1-May-2020

MÜƏLLİF HÜQUQLARI©AZERTEXNOLAYN MMC 2020